# Yadigar qol saatı

Atam zabit idi. Sovet qoşunlarının «N» saylı hərbi hissəsində qulluq edirdi. Tez-tez iş yeri dəyişilirdi. O, hara köçsə bizi də özüylə aparırdı. Mən o vaxt yaşca kiçik olsam da hər şeyi dəqiqliyilə xatırlayıram. Mən özümü çox xoşbəxt sanardım. Atam axşam işdən evə dönəndə öz otağında növbə ilə bizi bir-bir qarşılar, iki məndən yaşca böyük qardaşlarımın dərslərilə məşğul olar, mən və məndən kiçik bacı-qardaşımla mehriban söhbət edər, hər birimizə ayrıca qutularda şokolad hədiyyə edərdi. Atam məni o biri uşaqlardan çox istəyirdi. Bu qayğını mən hər an hiss edirdim. Hələ məktəb yaşım çatmamışdı, ancaq atam az qala hər gün məni oxudub ali təhsil verəcəyinə, cəmiyyətə layiq bir vətəndaş kimi yetişdirəcəyinə söz verirdi.

Yadımdadır, 1941-ci il iyun ayının 22-si gecəsi faşist Almaniyasının qoşunları gecə yarısı qəfil Sovetlər İttifaqının sərhədlərini pozumuşdu. O gecə mən şirin yuxuda ikən atam həyəcan siqnalı səsinə hərbi hissəyə getmiş, ancaq ertəsi günü gecə yorğun qayıtmışdı. Atamın gözlərində dərin bir kədər, təşviş gördüm. O, bu gün heç kəsə məhəl qoymadan otağına keçdi. Mən atamın hər gecə boynunu qucaqlayıb üz-gözündən öpər, sonra yatardım. Odur ki, onun otağına yaxınlaşdım. Amma səs eşidib qapıdaca ayaq saxladım. Atamla anam uzun-uzadı nəyisə müzakirə edir, atam anama acizanə xahiş edirdi:

—Müharibə başlayıb, sabah mən ön xəttə yola düşürəm. Bilmək olmaz, bəlkə bu savaş uzun çəkdi. Sağ qalsam davadan qayıdıb bütün problemləri özüm həll edəcəm. Yox, əgər ölsəm uşaqlarımdan mugayat ol. Zoyanın qayğısını çək. Axı o heç doğma anasının üzünü görməyib. Əgər Zülfiyyənin anası onu dünyaya gətirərkən ölməsəydi, başqa cür böyüdərdi. Həyat yoldaşım Fatimə dünyasını dəyişdikdən sonra dostlar-tanışlar gəncsən-evlənsən, uşaqların körpədir, onlara ana qayğısı lazımdır--dedikdə mən körpə uşaqlı dul qadın seçdim ki, o daha rəhimli olar. Bax, Valya, sabah mən davaya—Hitlerin burnunu ovmağa gedirəm. Sizi Sovet əsgərlərinin nümayəndələri arxaya köçürəcək.

Mən bu söhbətləri eşidib, həmin axşam anamın ögey ana olduğunu bildim. Atamla isə səhəri gün son dəfə görüşüb onu ön cəbhəyə yola saldım.

* * *

Analığım məni yuxudan oyatdı. Mən belə erkən yuxudan durmağa alışmamışdım. Yenidən başımı yastığa atarkən analığım deyindi: atan tapşırdı ki, səni oyadım. O, hərbi hissəyə qayıtdı. Biz hazırlaşıb çıxana qədər onlar sıraya düzülüb yola çıxacaqlar. Mən tez çarpayımdan atlanıb, qırmızı güllü, ətəyi qırçınlı təzə donumu geyindim. Bu paltarı atam mənə sonuncu dəfə şəhərə gəzintiyə çıxanda almışdı.

Biz hazırlaşıb qurtarmışdıq ki, meydanda minlərlə əsgər sıraya düzülüb əmr gözləyirdi. Komandanın əmri verildi. Əsgərlər dəstələrə bölünərək piyada yola çıxdılar. Onlar ahəstə səslə vətənə aid mahnılar oxuyurdular. Kimin ki, ailəsi, qohumları yaxında idi, hərbi şəhərcikdə yaşayırdı əzizini ötürmək üçün gəlmişdi. Şəhərcikdən dəmir yolu stansiyasınacan məsafə altıyeddi kilometr olardı.

*Hekayə*

Artıq gün doğmuş, ətrafa odlu şəfəqlərini saçırdı. Yol tarlalardan, düzlərdən keçirdi. Yolun kənarında ara-sıra ağcaqayın və şam agacları görünürdü. Bura ölkənin şimal ərazilərindən olduğundan gecikmiş yaz özünü göstərirdi. Çöl boyu çobanyastığı gülləri, lalələr ətrafa xalıtək naxış salmış, çəmənliyin yaşıl fonuna bir gözəllik qatmışdı. Səma aydın, günəş nur saçsa da bütün bunlarda bu gün Zoya bir hüznlü abı-hava görürdü.

Atam zabit olduğundan dəstədən bir az aralı yeriyir, məni qucağından yerə qoymurdu. Mən bərk-bərk onun boynuna sarılaraq qalmışdım. Atam yol boyu mənimlə söhbət etdi. Müharibənin acılarını mənə qandırmağa çalışdı:

—Qızım Zoya, mən ola bilər ki, müharibədən gec, lap gec qayıtdım. O vaxt sən artıq orta məktəbi bitirib ali təhsil alacaqsan. Ananın sözünə bax ki, sənə qəzəbi tutmasın.

Mənim körpə qəlbimə bir əbədi ayrılıq şübhəsi səpildi. Elə bu andaca hiss etdim ki, atam bir daha geri qayıtmayacaq.

Piyadalarla birlikdə süvari qoşun hissələri də stansiyaya gedirdi. Artıq stansiyaya çatdıq. Süvari ordunun əsgərləri atlarını yük vaqonlarına doldurdu. Mən dəhşətə gəldim, atlar ağlayırdı. Hansı atın üzünə baxdımsa gözlərində sanki kədər gördüm.

Növbə sıravi əsgərlərə çatdı. Əmr verildi, hamı bir nəfər kimi vaqonlara doluşdu. Mən atamdan ayrılmaq istəmirdim. O, məni bağrına basaraq başının üstə qaldırdı, sonra yerə qoydu. Cibindən əl dəsmalını çıxarıb bir ovuc xırda pulla doldurub bağladı və mənə uzatdı. Qolundan saatını açıb qoluma bağladı.

—Pula nə istəsən al, amma saatı yadigar saxla-- dedi. Onun gözlərində iki damla yaş gördüm. Hündürboy, enlikürək yaraşıqlı mənim hərbiçi atam şəstlə sonuncu vaqona atıldı. Qatar gözdən itincə o bizə, bizdə ona əl elədik. Bu savaşda milyonlardan biri olan atam beləcə bizi taleyin ümidinə ataraq vətən uğrunda döyüşə getdi və bir daha qayıtmadı...

* * *

Biz dünyaya gəldiyimiz andan uzaq bir yola çıxırıq. Bu ömür yoludur. Enişli-yoxuşlu bu yollar həyatımızın sonunacan bizi müşayiət edir. İstəsək də istəməsək də biz bu əzablı yolları gəzib dolaşır, ömür sarayımızı tikirik. Sonda isə tikdiyimiz ömür sarayının kərpicləri bir-bir düşür...

**Rəciyyə MEYFULLAQIZI.**
**Qəbələ şəhəri.**

## Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsi katirovka sorğusu

## ELAN EDİR

1. Əsaslı təmir.
2. Cari təmir

Katirovka sorğusu iyun ayının 12-dək qəbul olunur.
**Əlaqə telefonu:** 024- 20- 5-09- 84.

## Təbrik edirk!



**Sevimli balamız Emil!**

**10 yaşını təbrik edirik. Sənə necə-necə belə on yaşlar keçirməyi, ailədə, cəmiyyətdə özünə layiq yer tutmağı, həyatda həmişə xoşbəxt olmağı arzulayırıq.**

***Nənələrin Rəna, Nahidə, atan Əflatun, anan Afaq, bacıların Jalə, Səmra, dayın Elxan, yoldaşı Validə.***

# Elanlar

Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti Qəbələ rayon ərazi İdarəsi tərəfindən Bum qəsəbə sakini Əfəndiyev Şahin Arif oğlunun adına verilmiş Daşınmaz Əmlakın pasportu haqqında 24 oktyabr 2007-ci il tarixli reyestr № 406013003081 və hüquqların dövlət qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət reysteridən çıxarış (seriya MN №- 0005074) sənədləri **itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 1998-ci il tarixli 9 saylı qərarla Mirzəbəyli kənd sakini Ramazanov Kamal Məmmədhəsən oğlunun və ailə üzvləri Ramazanova Səriyyə Abbas qızının, Ramazanov İmran Kamal oğlunun adına verilmiş JN 124 №-li (kodu 40613018) Torpaq mülkiyyət hüququna dair Dövlət aktı **itdiyi üçün** etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Hüquqların Dövlət Qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Məmmədov Nadir Məhəmməd oğluna aid Seriya MA № 000106 çıxarış **itdiyi üçün** etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Rayon mərkəzi xəstəxanasının kollektivi **Kamil** və **Samir Şərifovlara,** ataları **AĞA ŞƏRİFOVUN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Rayon mərkəzi xəstəxanasının baş həkimi Sabir Bayramov **Samit Ağayevə,** əzizi **ŞƏFİQƏ XANIMIN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ müalicə-diaqnostika mərkəzinin kollektivi iş yoldaşları **Əfsanə Salamovaya,** atası **LƏTİF İBRAHİMOVUN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon Mərkəzi xəstəxanasının kollektivi iş yoldaşları **Adil Mütəllimova,** anası **ŞƏFİQƏ XANIMIN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin kollektivi iş yoldaşları **ƏSƏDOV XALƏDDİN İSRAYIL OĞLUNUN** vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov və muzeyin kollektivi iş yoldaşları **Tahirə xanıma,** atası **SƏHRAB AĞAYEVİN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ peşə məktəbinin kollektivi iş yoldaşları **Camal Rəsulova,** anası **MÜRƏSTƏ XANIMIN** vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospektii, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.